**Osmanova Məlahət Nazim qızı [53]**

# Y.SƏMƏDOĞLUNUN "QƏTL GÜNÜ" ROMANINDA KİMLİK VƏ TARİXİ YADDAŞ

## (80-cı illər Azərbaycan romanı müstəvisində)

Kimlik və tarixi yaddaş məsələləri milli kimliyin və deməli, milli ədəbiyyatın formalaşmasını şərtləndirən əsas amillərdəndir. Onlar biri-biri ilə bağlı anlayışlardır və kimliyin qorunmasında, insanın öz müqəddəratını təyin etməsində əsas rol oynayır. Kimliyin formalaşması tarixi yaddaş və keçmişlə bu günün qarşılıqlı əlaqəsində özünü göstərir.

Keçmişin obrazı indiki zamanda tamhüquqlu subyekt kimi mövcudluğunu heç bir zaman gizlətmir. Belə olan halda tarixi yaddaşı insan varlığına məna verən məkan kimi qeyd edə bilərik. Söhbət tarix dərslərdən və onun gətirdiyi gerçəklikdən gedir. Amma o da qeyd edilməlidir ki, tarixin müəyyən reallıqları bir qayda olaraq ağrılı xarakter daşıyır və travmatik yaddaşla bu günə müncər olur. Bu zaman keçmişə münasibətdə indiki zamanın "günahları" ortaya çıxır. Günah hissinin aradan qaldırılması tarixi gerçəkliyin bərpası kimi başa düşülməlidir. Görünür elə bu səbəbdən kollektiv kimliyi formalaşdıran tarixi yaddaş tarixin faciəli və dramatik hadisələrinə xüsusi formada reaksiya verir.

Keçən əsrin 80-cı illərində Azərbaycan ədəbiyyatında ictimai-siyasi vəziyyətlə bağlı dəyişikliklər geniş yer alır, bu dövrün ədəbiyyatında milli-mənəvi dəyərlər önə çıxırdı. Ədəbiyyatda milli məfkurə, tarixi yaddaş və milli kimlik problemləri bədii nəsrin əhatə dairəsinə düşürdü. Bu baxımdan Azərbaycan romanı ədəbi tənqid tərəfindən keyfiyyət baxımından dünya ədəbiyyatı müstəvisinə çıxa biləcək yeni nəsr nümunəsi kimi dəyərləndirilir [(Bax: 8; 1; 11; 2; 9; 7)]. Dünya ədəbiyyatında əhəmiyyətli dərəcədə aktual olan mifik və tarixi yaddaş, milli kimlik mövzuları Azərbaycan ədəbiyyatında da öz əksini tapır. Azərbaycan nəsrinə yeni nəfəs gətirən Yusif Səmədoğlu yaradıcılığı Cavanşir Yusiflinin də qeyd etdiyi kimi "bizim nəsrimiz üçün önəmli sayılır"[12].

Yusif Səmədoğlunun "Qətl günü" (1987) romanını Günel Əhmədova "Yusif Səmədoğlunun "Qətl günü" romanında tarixi, mədəni yaddaş qatları" [3], Səbinə Əliyeva "1960-80-cı illər Azərbaycan və Amerika nəsrində mifoloji motivlər (Y.Səmədğlunun "Qətl günü" və C.Apdaykın "Kentavr" romanları əsasında)[6],Lətafət Əliyeva "Yusif Səmədoğlunun yaradıcılığı"[4],Leyla Əliyeva "Yusif Səmədoğlunun nəsrində yaddaşın bədii-estetik funksiyası" [5]adlı tədqiqatlarında mifoloji yaddaş məsələləri bu və ya digər dərəcədə tədqiqata cəlb olunsa da "Qətl günü" romanında tarixi yaddaş mövzusu kimlik problemi ilə öyrənilməmişdir. Yuxarıda qeyd edilən tədqiqat işlərinin elmi əhəmiyyətini inkar etmədən onu da vurğulamaq istərdik ki, tarixi yaddaş və onun miflə əlaqəsi məsələsi mahiyyəti etibarilə diskussiya predmeti kimi daima yeni yanaşmaları önə çıxarır. Bu həmçinin onunla bağlıdır ki, mif mədəni yaddaşın bir hissəsidir və mədəni yaddaşın universallığı kimi özündə mifoloji yaddaşa – həm kollektiv, həm də şəxsi xatirələrə əsaslanır. Düşünürük ki, Yusif Səmədoğlunun "Qətl günü" romanı bu baxımdan maraq doğurur. Tarixi yaddaş və kimlik mövzusu əsərin ana xəttini təşkil edir və bütün əsər boyu Sədi Əfəndinin, Xəstənin və müəllifin mətnində özünü göstərir. Sədi Əfəndi qətl günü haqqında əsər yazır, Xəstə Sədi Əfəndi haqqında əsər yazır, müəllif "Qətl günü" romanını yazır. Hər üçü əsər tarixi yaddaşa və fərdin milli kimliyinə, onun mahiyyətinə, varoluşuna söykənən mövzunu açır.

Yaxın və ya sənə ruhən doğma insanların xatirəsi itirilmiş milli kimliyinin bərpasının yeganə yoludur. Romandakı hadisələrin mərkəzini təşkil edən qəhrəmanlar əzab çəkən, yaşadığı dövrə və onun qanunlarına qarşı gedə bilməyən, amma öz daxili keyfiyyətlərini itirməyən insanı təcəssüm edirlər. Onların döyüşü dövranla deyil, öz taleyi, yaddaşı, kimliyi ilədir. Pyer Nor yazır ki, fərdi yaddaşın rolu "yaddaşın yeri"nin[14, s.18]sakrallaşması, tarixi yaddaşa şahidlik etməsi və ilk növbədə milli kimlik böhranı ilə əlaqəlidir. P.Nora görə "tarixi yaddaş"ın yerinə "insan yaddaşı" modeli gəldikdə tarixin formalaşması məqamı baş verir [14, s.19].

Məlumdur ki, yaddaşkimlik anlayışının mühüm elementidir.Yaddaş insanın bir şəxsiyyət kimi formalaşmasına və öz müqəddəratının təyinetməsinə yardım edir. Basqı və sıxıntı, güc və zor altında onun kimliyi böhrana məruz qalır və bir qayda olaraq belə hallarda şəxsiyyət ya fiziki, ya da mənən "yox" olur. Sədi Əfəndi qan içən hökmdarın təzyiqindən, Xəstə sovet dövrünün siyasətindən, onu idarə edən insanların "oyunlarından" baş açmır, xəstə düşür. Yan Assmana görə kimliyi yaddaşın elementləri, özün haqqında diaxronik biliklər formalaşdırır[16, s.110]. Qeyd etdiyimiz kimi əsərdə Sədi Əfəndi və Xəstə obrazı ilə yanaşı müəllifin də izlərini görmək olur. Məhz müəllif tarixi yaddaş və kimlik mövzusunu daha qabarıq şəkildə qaldırır: "Gəlirəm! Gəlirəm ki, haqq-hesab çəkəm, gəlirəm ki, görüm bu ikiayaqlı, dəmir libaslı, nizəli-qalxanlı, aylarla su üzü görməyən, kirdən-pasdan sifətləri mis rənginə çalan bu ikiayaqlı şeytanlar niyə belə qudurublar? Gəlirəm ki, yuxusuz gözlərdəki kinin, hiddətin səbəbindən agah olam, qaysaq bağlamış dodaqların arasından çıxan tüpürcəkli söyüşlərin mənasını anlayam, bu payız gününün sazağında çiyin-çiyinə verib dayanmış, çadırların həndəvərində oturmuş, yorğunluqdan su qaynatmağa da taqətləri qalmamış, əti-çiy-çiy yeyən, sonra qana bulaşmış dodaqlarının seliyini sifətlərinə yayan ikiayaqlı bəndələr bu bəlalı dünyadan nə istəyirlər!" [10,s.11-12]. Burada ədəbiyyatşünas alim Tahirə Məmmədin də tam haqlı olaraq qeyd etdiyi fikri səsləndirmək yerinə düşər. O, yazır ki, "mətn müəllifin milli kimliyinin təyini"dir və "mətn bir çox təyinatları ilə bərabər, həm də müəllifin özünüifadəsidir. Müəllif fərd olmaqla yanaşı müəyyən bir milli kimliyin daşıyıcısıdır. O, məqsədli və ya qeyri-şüuri şəkildə öz milli kimliyini yaratdığı əsərə yansıdır" [8]. Beləliklə, görmək

[53] **Filologiya üzrə fəlsəfə doktoru, dosent. Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası**

olur ki, Y.Səmədoğlu Baba Kaha mifoloji obrazını canlandırmaqla mifologiyada qorunub saxlanılan yaddaş anlayışını kökə, əcdadların yaddaşına qayıtmaqla təcəssüm edir. Mifologiya xalqların unikallığını müəyyən edir, onun mentalitetinə, özünü təyinetməsinə təsir göstərir. Məlumdur ki, bu proses xalqın mənəvi-ruhani dünyasından, yaddaşından, onun miflərindən qaynaqlanır. Görünür elə bu səbəbdən S.Əliyeva yazır: "Qətl günü" istedadlı yazıçı Yusif Səmədoğlunun ağrı yaddaşından doğulan əsərdir. Üslubların və zamanların, talelərin və tarixlərin kəsişdiyi bu çoxşaxəli, çoxplanlı roman XX əsr Azərbaycan ədəbiyyatında bədii – fəlsəfi hadisədir, milli roman təfəkkürümüzün yüksək səviyyəsini əks etdirən mifik və tarixilik məcrasında yazılmış müasir psixoloji romandır" [6, s.16].

O da qeyd edilməlidir ki, mif tarixi yaddaşın bir hissəsidir. Xüsusən də mifin tale kimi dərk edilməsi ilə bağlıdır. Şellinq belə hesab edirdi ki, "xalq mifologiyanı tarixdə tapmır, əksinə, mifologiya onun tarixini müəyyən edir, daha doğrusu, tarixi müəyyən etmir, elə onun taleyidir"[15, s.154]. Hər bir xalqın həmişə öz tarixi yaddaşına hopmuş, daim yeni kontekstdə təkrar önə çıxan "xalq-fərd" və "xalq-millət" anlayışına təsir edən öz mifologiyası var. Mif tarixi yaddaşın başqa adıdır, beləliklə, tarixi yaddaşın bir hissəsi olan mifləşmiş keçmişdir. Baba Kaha mifik obrazı da zaman-zaman ortaya çıxan, özünü hakimi-mütləq bilən, məcrasından çıxan insan oğlunu cəzalandırır. Təsadüfü deyil ki, Sədi Əfəndinin edamından sonra hökmdar da Baba Kahanın yolladığı cəzanı alır: "... dizdən yuxarı buz bağlamışdı... divarlardakı buz qatı da, dizdən yuxarı iki bədəni örtmüş sal buz da qırmızımtıl rəngə çalırdı və bu qırmızımtıl buz, bədən boyu, su kimi yuxarı axıb hülqumlarına çatanda, hökmdar daha heç bir şey görmədi" [10, s.169].

Baba Kaha mifoloji obrazı tarixi yaddaşın L.Əliyevanın da qeyd etdiyi kimi "müxtəlif mənşəli (dini, tarixi, ədəbi mədəni) arxetiplərlə təzahür etməsidir"[5, s.15]. Onu da qeyd edək ki, 60-80-cı illər Azərbaycan romanında "xatırlayan insan" obrazı bir çox yazıçıların yaradıcılığında yer alır. İ.Hüseynov, İ.Şıxlı, M.Süleymanlı, Ə.Əylisli və digərləri "xatırlayan insan" obrazıyla tarixi yaddaşı canlandırırdı. Milli kimlik diskursu bu əsərlərdə yaddaşın tarix üzərində hökmranlığı, şahid və ya yaddaş daşıyıcısı kimi önə çıxırdı.

"Qətl günü"də Sədi Əfəndi kimi hökmdar hüzurunda olan şair də milli dəyərlərin, milli yaddaşın obrazına çevrilir, sovet dövründə yaşayan Xəstənin yuxularında yenidən canlanır: "Kimsə arxadan onu itələdi və nizəli-qalxanlı iki keşikçi qabağa keçdi, dili kəsiləndən sonra, ağrı şairi haldan salandan sonra, o, dünyanın bütün iyi-qoxusundan məhrum olmuşdu... Şairin gözündən bir damla yaş yanağına yuvarlandı, bu damla ağ deyildi, bu damla qırmızı idi...

Şairi edam yerinə qaldırdılar. O, gözlərini qıyıb əvvəl-əvvəl aşağıda, meydançanın ortasında taxtda əyləşmiş hökmdarı gördü və şairin gözləri qaqqanaq çəkib güldü: xədim xanın çöhrəsi heyva sürüsündən də artıq qırış idi. Sonra şair başını ağır-ağır endirib sərbazlara baxdı: sərbazlar təzək iyi verirdilər. Sağ tərəfdə dayanıb, qorxu içində şairin edamına tamaşa edən öz obalılarını – qocaları, qarıları, cavan oğlan uşaqlarını və nəhayət, ömrü boyu uca qamətlərini və ala gözlərini vəsf elədiyi gəlinləri, qızları görəndə gözündən bir damala da yaş axdı: bu damla yaş ağ deyildi, bu damla da qırmızı idi" [10, s.154]. Keçmişi yenidən dərk etmək, tarixi hadisələri yenidən dəyərləndirmək ilk növbədə kollektiv yaddaşla bağlı olan və travmatik xarakter daşıyan təsəvvürləri və obrazları yenidən qəbul etmək yüzilliklərin nəticələrini yekunlaşdırır, digər tərəfdən, bu cür tədqiqatların aktuallığını təsdiqləyir. Bu mənada deyə bilərik ki, keçmiş ilə insanın kimliyi arasında qarşılıqlı əlaqə təkcə bir-birindən asılı deyil, həm də dinamik şəkildə inkişaf edən strukturu müəyyən edir, xatirələrin qarşıdurmasını istiqamətləndirir. Bu baxımdan "Qətl günü" yaddaş ilə kimliyin qarşıdurması şəklində maraq kəsb edir. Şairin edam səhnəsindən oxuyuruq: "göz yaşları qurumuş bu gəlinlərin, bu qızların hər birinin bətnində indi neçə-neçə sərbaz toxumu var"[10, s154]. Bu kontekstdə özündə mifoloji və simvolik hadisələri birləşdirən tarix deyil, həm də keçmişin mifoloji obrazına qədər uzanan xatirələr də əhəmiyyət kəsb edir. Onu yenidən dərk etmək, anlamaq və başa düşmək məqsədi daşıyır. Yalnız bu halda yaddaş mifoloji mövzunun həyata keçirilməsində xüsusi yer tutur, çünki yaddaş vasitəsilə tarix mifə çevrilir. Görünür elə bu səbəbdən Azərbaycan romanının tədqiqatçısı, ədəbiyyatşünas alim Yavuz Axundov "Qətl günü" ilə bağlı yazır ki, "əsərdə bəşərin tarixi faciələri, insanla zaman arasında anlaşılmazlıq və bundan doğan mənəvi kolliziya əks etdirilmişdir" [1, s.218].

Tarixi kollektiv yaddaş nəzəriyyəsinin banisi Moris Halbvaksa görə yaddaş kimliyin müəyyən edilməsində vacib rol oynayır. Alim qeyd edir ki, yaddaş həm sosial qruplardan, həm də fərdin bu qrupdakı mövqeyindən asılıdır. Sədi Əfəndi, Xəstə, Zülfüqar kişi, feldşer Mahmud özündə dövrün yaddaşını daşıdığı kimi, həm də özünün bu dövrdəki mövqeyi ilə öz kimliyini müəyyən edir. Başqa sözlə, M.Halbvaksın da qeyd etdiyi kimi fərdi yaddaş yalnız şəxsiyyətə aid deyil, "yaddaş qrupun təsəvvürlərini yaratdığı andan kollektivə çevrilir" [17, s.169]. M.Halbvaks belə hesab edir ki, kollektiv yaddaş bütöv cəmiyyəti formalaşdırır, insan da bu cəmiyyətdə öz xatirələrini, yaddaşını anlayıb dərk edir.

Yuxarıda qeyd edilən fikirləri nəzər alaraq görmək olur ki, Xəstənin yaddaşı da milli kimlik prizmasından açılır. Xəstənin milli-mənəvi dəyərləri millətinə, xalqına, onun keçmişinə və bu gününə olan münasibətdə əyani şəkildə özünü büruzə verir. Xəstə Sədi Əfəndini özü ilə eyniləşdirir və belə yanaşma da onun bir ziyalı kimi milli təəssübkeşliyini göstərir: "Xəstəyə elə gəldi ki, o özü, Sədi Əfəndinin üç dəftərlik gündəliyini oxuyandan sonra, sadəcə gözləri açılmışdı, çoxdan ürəyində gəzdirdiyi şübhəli sualların cavabını tapıb, bir-iki gün ərzində həyata, bəzi hadisələrə baxışında bir qədər müdrik və ayıq olmuşdu" [10, s.172]. Yaddaş obrazında keçmişlə indinin əlaqəsini vəhdətdə görən A.Berqson yazır ki, : "keçmiş obraza çevrilən kimi o, təmiz yaddaşdan çıxır və mənim bu günümlə bir araya gəlir"[13, s.553]. Demək, tarixi və tarixi yaddaşın qarşılıqlı əlaqəsi mili kimliyi irəli sürür. Qeyd etməliyik ki, tarixi yaddaş onu daşıyanla vəhdətədir. Tarixi yaddaş etibarlı kimlik vasitəsi kimi çıxış edir. Onun konkret və simvolik təsvirləri vacib açar rolunu oynayır. O "yad" üçün heç bir dəyər daşımasa da, ənənələrin daşıyıcısı üçün vacib funksiya rolunda çıxış edir, onun kimliyini müəyyən edir. "Qətl günü" romanı da bu baxımdan yaddaş və kimlik

konfiqurasiyasını önə çıxarır, yaddaşı kimlik kimi təqdim edir. Belə olmasaydı Xəstə, Zülfüqar kişi, feldşer Mahmud bu qədər əzab çəkməzdilər
.

Sədi Əfəndi, Xəstə kimi feldşer Mahmud və Zülfüqar kişi də həm tarixi yaddaşı, həm də fərdi yaddaşı bir araya gətirir. Zülfüqar kişi Adil Qənbəroviçin tapşırığı ilə Sarıca oğlu Məhəmmədin öldürülməsinə "Tovariş Salaxov, budet zdelano!"- deyib yerinə yetirdikdən sonra yaddaşının "cəhənnəmini" yaşayır: "İki qaraltı əl-ələ verib, daşların üstü ilə Kürün quruyub cadar olmuş vadisi boyu şimala tərəf, uzaqlardakı dağlara doğru addımladılar. Onlardan xeyli qabaqda iki qız uşağı – ikisinin də çiyninə tökülmüş bəyaz saçları tül pərdə kimi yellənirdi, ikisi də uzunatək don geymişdi və ikisinin də dabanları çatlaq-çatlaq idi – eynən Zülfüqarla Sarıca oğlu Məhəmməd kimi əl-ələ verib eyni səmtə gedirdilər.

– Səninkilərdilərmi, ay Məhəmməd?

– Hə.

– Bə..

– Sən məni vurandan ikicə ay sonra onlar da tələf oldular.

– Yandım, kül oldum, a dağlar"[10, s.48].

Feldşer Mahmud milli mənəvi dəyərləri küçümsəyəndə Qətl günü yetişir: "– Baba Kahanı partdadırlar, Mahmıd!

– Haranı partdadırlar, cəhənnəmə partdadsınlar, buna bax ey! Yerində göl olacaq, sənnən mən yayda orda çiməcəyik. – Mahmud qaqqanaq çəkib güldü"[10, s.187]. Feldşer Mahmud içir, özü də dediyi kimi "kefdən" ayılmaq istəmir. Ona görə mifik yaddaş, milli kimliyin atributu olan Baba Kahanı "cəhənnəmə partladsınlar" deyəndən sonra dünyadan köçür. Amma bu köç onu şəhərdə xəstə yatan qohumunun teyfi ilə yenidən mifik yaddaşa – Baba Kahaya doğru aparır. Göründüyü kimi keçmiş, tarixi yaddaş Zülfüqar kişi kimi, onun da bu gününü müəyyən edir. S.Əliyeva yazır ki, "romanın mifik strukturunu təmin edən müxtəlif atributlar var: Baba Kaha, Kirlikir qeyri-adi külək, canavar, yuxu. Bütün bunlar bir məqamda birləşir. O məqamın adı – Yaddaşdır! Romanda Xəstənin, feldşer Mahmudun, Zülfüqar kişinin yaddaşları bir məxrəcə gəlir [6, s.19].

Göründüyü kimi, Y.Səmədoğlunun "Qətl günü" romanında tarixi yaddaş və milli kimlik problemi Sədi Əfəndi, Xəstə, Zülfüqar kişi, feldşer Mahmud obrazları ilə şəxsi təcrübələrini keçmişin təcrübələri ilə birləşdirərək kollektiv yaddaşın, milli kimliyin bərpasında iştirak edirlər.

**Ədəbiyyat:**


1.Axundov, Y.I. Seçilmiş əsərləri. 3 cilddə,II cild. Naxçıvan: Presfakt, 2013. 246 s.
2.Əlişanoğlu, T. Mustafayev. XX əsr Azərbaycan nəsrinin poetikası. Bakı: Elm, 2006, 212 s.
3.Əhmədova, G. Yusif Səmədoğlunun "Qətl günü" romanında tarixi, mədəni yaddaş qatları. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2018, 64 s.
4.Əliyeva, L. "Yusif Səmədoğlunun yaradıcılığı". Filologiya üzrə fəlsəfə doktoru dissertasiyası. 2008, 225 s.
5.Əliyeva, L. Yusif Səmədoğlunun nəsrində yaddaşın bədii-estetik funksiyası: filologiya üzrə fəlsəfə doktoru dissertasiyası. 2018, 125 s.
6.Əliyeva, S. 1960-80-cı illər Azərbaycan və Amerika nəsrində mifoloji motivlər (Y.Səmədğlunun "Qətl günü" və C.Apdaykın "Kentavr" romanları əsasında). Filologiya üzrə fəlsəfə doktoru dissertasiyası. 2021. 149s.
7.Qasımov, H. Azərbaycan romanının inkişaf problemləri. Bakı: Nurlan. 2008, 336s.
8.Məmməd, T. Milli kimlik və bədii mətn (monoqrafiya). Bakı, "Elm və təhsil". 2020, 144 s.
9.Salamoğlu, T. Müasir Azərbaycan romanının poetikası. Bakı: Elm, 2005, 280 s.
10.Səmədoğlu Y. Qətl günü. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb". 2005, 320 s.
11.Yusifli, V. Tənqid və bədii söz. Bakı: Mütərcim, 2002, 208 s.
12.Yusifli, C. Yusif Səmədoğlunun "Qətl günü" romanında bədii interyer https://edebiyyatqazeti.az/news/edebi-tenqid/588-yusif-semedoglunun-qetl-gunu-romaninda-bedii-interyer
13.Бергсон, А. Творческая эволюция. Материя и память. Минск: Харвест. 1999. 1408 с.
14.Нора, П. Проблематика мест памяти // Франция-память. СПб: Санкт-Петербургского университета, 1999. 333с.
15.Шеллинг, Ф. В. Й. Введение в философию мифологии : пер. с нем. Соч. в 2 т., Т. 2. М.: Мысль, 1989. 544 с.
16.Assmann, J. Communicative and Cultural Memory // Cultural Memory Studies. An International and Interdisciplinary Handbook / ed. by A. Erll, A. Nünning. Berlin, 2008. 445p.
17.Halbwachs, M. On Collective Memory . Chicago-London: The University of Chicago Press, 1992. 254 p.



**Açar sözlər:** Azərbaycan romanı, Y. Səmədoğlu, "Qətl günü", kimlik və tarixi yaddaş

**Ключевые слова:** Азербайджанский роман, Ю.Самедоглу, «День казни», идентичность и историческая память

**Keywords:** Azerbaijani novel, Y. Samadoghlu,"The Day of the Murder", identity and historical memory


## Идентичность и историческая память в романе Ю. Самедоглу «День казни» (На основе азербайджанского романа 80-х годов)

### Резюме


В статье исследуется роман Ю.Самедоглу «День казни» в контексте идентичности и исторической памяти. Автор статьи отмечает, что эти два понятия тесно связаны друг с другом и играют роль идентификации в судьбах народов в определенные периоды. Утрата идентичности оставляет неизгладимый след в исторической памяти. «День казни» —об уроках истории и реальности, которую она несет. Автор показывает, что исторические события имеют болезненный характер и донесены до наших дней травматической памятью. В это время раскрываются «грехи» прошлого и настоящего. Устранение вины следует понимать, как восстановление исторической памяти.


## Identity and Historical Memory in the Novel by Y. Samadoglu's "The Day of the Murder" (Based on an Azerbaijani novel of the 1980s)

**Summary**

The article explores the novel “The Day of the Murder” by Y. Samadoglu in the context of identity and historical memory. The author of the article notes that these two concepts are closely related to each other and play the role of identification in the fate of nations in certain periods. The loss of identity leaves an indelible mark on historical memory. “The Day of the Murder” is about the lessons of history and the reality it brings. The author shows that historical events have a painful character and are brought to our days by traumatic memory. At this time, the ‘sins’ of the past and present are revealed. The removal of guilt should be understood as the restoration of historical memory.

**RƏYÇİ : dos. L.Ələkbərova**